İ.Əfəndiyev
"Unuda bilmirəm"

İlyas Əfəndiyev yaradıcılığında

O səhnə əsərlərində çəkinmədən ictimai həyatımızın eyiblərini tənqid edərək, insanları yaxşı əməllərə, düzlüyə, zəhmətsevərliyə, yüksək mənəvi dəyərlərə sahib olmağa səsləyir. Onun «Atayevlər ailəsində», «Sən həmişə mənimləsən», «Unuda bilmirəm», «Mahnı dağlarda qaldı», «Məhv olmuş gündəliklər», «Xurşudbanu Natəvan», «Şeyx Xiyabani» və digər yüksək ideyalı pyeslərində şəxsiyyət və onun içtimai mövqeyi münasibətləri xüsusi bir həssaslıqla təhlil edilir, millət, vətən, tarix, mənəvi dəyərlər kontekstində işıqlandırılır.

«İlyas Əfəndiyev ədəbiyyatda hər cür sünilikdən, qəhrəmana yamaq vurmaqdan, əsər başlayan kimi şit ifadə və ibarələrlə qəhrəmanı «Sevdirməyin» əleyhinədir» (2, s.491). Onun qəhrəmanları öz təbii, saf, sadə düşüncələri ilə öz müasirlərini maraqlandıra bilir. Ata nəvazişindən məhrum olan Nargilə ögey atasının kobud, amansız rəftarı qarşısında acizdir. Təklənmiş Nargilə özünə etibarlı bir dost, arxa axtarırkən, özündən çox-çox yaşlı bir kişiyə mehrini salır. Bu münasibət, saflıq, paklıq gənc qıza o qədər təsir edir ki, o bu qayğının səmimiliyi qarşısında ram olaraq, Həsənzadəni böyük bir fədakarlıqla sevməyə başlayır. Böyük məhəbbətə layiq olan Həsənzadəni sevməkdə gənc Nargilə səhv etməmişdir. Lakin onun bu məhəbbətini əsl səadət kimi qəbul etmək istəyən zavod direktoru Həsənzadə də saf və böyük mənəvi dünyaya malik olduğu üçün Nargilənin gələcəkdə xoşbəxt olmasına mane olmaq istəmir. Bax beləcə gənc qızın yaşlı bir kişiyə məhəbbətinin cavabsız qalmasının əsl mahiyyətində vicdan, namus və insan ləyaqəti dayanır. Həsənzadənin ucalığı, ləyaqəti, yüksək mənəvi dəyərləri Nargiləyə münasibətdə üzə çıxır. O, Nargilənin səadəti naminə, öz səadətindən yan keçir. Bu da onun böyüklüyünün, alicənablığının, insanlığa qayğısının, gəncliyə saf məhəbbətinin əsl nümunəsi kimi təzahür edilir.

«Sən həmişə mənimləsən» pyesinin fəlsəfi dərinliyinin əsasında dayanan «insanşünaslıq» prinsipləri bütün dövrlər üçün böyük maraq doğurmuş və doğuracaqdır. Pyesdəki Həsənzadə obrazı cəmiyyətin mənəvi inkişafında təsirli bir nümunə məktəbidir.

İlyas Əəfəndiyevin müraciət etdiyi mövzular öz aktuallığı, zamanla, tarixi şəraitlə, ictimai və sosial

durumla bilavasitə bağlı olduğu üçün də tamaşaçılar tərəfindən hərarətlə qarşılanmışdır.

«O mövzu seçməyi, məntiqli sujet qurmağı, dramatik vəziyyətlər, xarakterlər yaratmağı, öz fikirlərini bəyanat yolu ilə deyil, canlı hadisələrdə, yığcam dialoqlarda, əsl səhnə dili vasitəsilə ifadə etməyi gözəl bacarır» (3). Rejissor Mehdi Məmmədovun söylədiyi bu fikirlərin məntiqli ifadəsini dramaturqun yaratdığı Şahmar, Nicat, Savalan, Valeh, Natəvan, Şeyx Xiyabani və digər obrazların xarakterində, siyasi, ictimayi və fəlsəfi düşüncələrində görürük. Onun qəhrəmanları zəmanəsinin düşünən, halallığa söykənərək xalqına, vətəninə sədaqətlə xidmət göstərməyi özünə borc bilən, sadə və səmimi həyatları, amalları ilə bizlərə yol göstərən insanlardır. Dramaturq əməyi, zəhməti sevənləri daha yüksək şövq ilə tərənnüm etməyi, onları cəmiyyətin aparıcı qüvvəsi kimi göstərməyi həmişə diqqət mərkəzində saxlamışdır. Ona görə ki, yaşayıb-yaratmaqdan, vətənə və xalqına xidmətindən zövq alan bu insanların

«Usta dramaturq xarakter təcəssümündə qayğıkeş, ehtiyatlı və tələbkar olur. Çünki o, «insanşünaslıqla» məşğuldur. O, «hər addımda efiz kimi nazik, öz atımında hədsiz miqdarda ziq-zaqa və hissiyata, hər biz yeni şəraitdə qayət tez dəyişən əhval-ruhiyyəyə malik olan materiala – insana zast gəldiyindən, insanın dərin psixolojisinə soxulub, onun hər biz tərəddüdünü gözə bilməli, bu nazik təbəddülatın yüksəkliyinə qalxmalıdır» (1, s. 191).

Filosof rejissor, tənqidçi, alim Mehdi Məmmədovun bu fikrini biz sözün əsl mənasında dahi dramaturqumuz İlyas Əfəndiyevin dramaturgiyasına şamil edərək, onun tamaşaya hazırlanan hər biz pyesində «insanşünaslığın» yüksək səviyyədə öz ifadəsini tapdığının şahidi oluruq. O, yaratdığı hər biz obrazın sanki bütün iç dünyasının qatlarında «nazik efiz» kimi dolanaraq, səyahət edərək və onu həssas hisslərin xırda gözündən keçirərək duymuş və duydurmaq üçün bitkin biz xarakter, şəxsiyyətin arzu etdiyi aləmi yarada bilmişdir. Lirik-romantik aləmin yaratdığı cazibə qüvvəsi bizləri həmişə özünə cəlb edir, bizi onun arzuladığı müsbət qəhrəmanların arzu dünyasına qovuşdurur.

İlk qələm təcrübəsini «İntizar» pyesində sınayan xalq yazıçısı İlyas Əfəndiyevin səhnə əsərləri yarım əsrdən çoxdur ki, milli səhnəmizin repertuarında xüsusi bir yüksəklikdə özünə yer tutaraq, teatrsevərlərin mənəvi dünyasını zənginləşdirir.

«İnsanşünaslıq» xüsusiyyətləri

vasitəsi ilə dramaturq öz düşüncələrini «diktə və bəyanat» yolu ilə deyil, bədii obrazın özünəməxsus təbiiliyi, sadəliyi və canlılığı ilə tamaşaçısına nümunə çəkərək, ona emosional təsir göstərməyi bacarır. Bu bacarıq onun insanların şüurunda və psixologiyasında baş verən təbəddülatı düzgün duymaq həssaslığından irəli gəlir. Xalq artisti Əli Zeynalov ifa etdiyi Həsənzadə obrazının («Sən həmişə mənimləsən» tamaşaçında) psixologiyasını təhlil edərkən yazırdı ki: «İlyasda lirik əhval-ruhiyyə dəmirağacının həyat eşqi kimi güclüdür. Amma, yaxşı ki, heç vaxt lirikaya nə isə lirik bir səhnə və yaxud vəziyyət yaratmaq xatirinə meyl etmir. Onun lirikası qəhrəmanlarının psixoloji vəziyyəti ilə və bilavasitə yaranmış zəruri situasiya ilə bağlı olur» (4). Xalq artisti Əli Zeynalov ifa etdiyi Həsənzadə obrazının xarakterində lirik əhval-ruhiyyənin həyat eşqindən yarandığı və bu obrazın psixoloji vəziyyətlərinin zəruri hallardan doğduğunu qeyd edərək bildirirdi ki, bu obrazın tamaşaçılar tərəfindən xüsusi hörmətlə qarşılanmasının əsas səbəbi dramaturqun özünün həyata, saflığa, paklığa, ülviliyə olan «eşq»indən irəli gələn lirizmlə bağlıdır. Bu lirikada insan mənəviyyatı, əxlaqı dəyərlər, tarixə və milli özünüdərkə xüsusi dəyərin olduğu diqqəti çəkir. Milli dramaturgiyamızın dəyərli nümayəndələrinin Əbdürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun, Nəriman Nərimanovun, Cəlil Məmmədquluzadənin, Sultan Məcid Qənizadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının və digər ədiblərimizin ideyalarına sadiq qalan İlyas Əfəndiyevin 20-yə yaxın səhnə əsərində gəncliyin mənəvi tərbiyyəsinə xüsusi diqqət və qayğı əsas problem olaraq bu pyeslərin ideya-estetik qayəsini şərtləndirir. Bu pyeslərin hamısında gənclik yüksək ideal uğurunda mətin olmağa, mübariz əhval ruhiyyə ilə köklənməyə dəvət edilir. Dramaturq yaratdığı obrazların psixalogiyasına nüfuz edərkən, milli-mənəvi şüur problemini ümumi hadisələrin fonunda deyil, bu obrazların psixoloji vəziyyətlərinin fonunda təzahür edən münasibətlərdə aşkara çıxarmağa üstünlük verir. Elə ona görə də Nərminin, Kamranın, Anjelin, Fəridənin, Ayqızın, Nargilənin, Savalanın, Valehin və digər gəncliyə nümunə olan personajların əhval-ruhiyyəsi öz səmimiliyi, təbiiliyi ilə bizi özünə cəlb edir. İlyas Əfəndiyev «sevgi sujetini və lirik etiraf üslubunu sevirdi». Bu məziyyətlərinə görə xalq yazıçısı İlyas Əfəndiyevin bütün yaradıcılığı, həmçinin dramaturgiyası xalqımızın mənəvi tərbiyyəsinin zənginləşməsində xüsusi bir məktəb rolu oynamış və oynamaqdadır...

Məlaikə ƏLİYEVA

Ədəbiyyat

1. Mehdi Məmmədov. «Azəri dramaturgiyasının estetik prinsipləri» Bakı. Azərnəşr,1968.
2. Abid Tahirli «İlyas Əfəndiyevin publisitikası» Bakı,2005.
3. Mehdi Məmmədov «Səhnəmizin müttəfiqi» məqaləsi. «Ədəbiyyat və İncəsənət»,1974, 23 noyabr
4. Əli Zeynalov «Sən həmişə mənimləsən» «Ədəbiyyat və İncəsənət». 1974, 23 noyabr